# "NONKONFORMİSTLƏR"İN ÜSLUB AXTARIŞLARI

**Həmidə Süleymanova**
Azərbaycan Dövlət Rəsm Qalereyasının elmi işçisi

Cəmiyyətin yaradıcı insana qarşı tələbi və ondan gözləntisi tarix boyu müxtəlif olmuşdur. Sənət tənqidçiləri əsrlər boyu yaradıcı şəxsləri zamanın fövqündə dayanan, normalara qarşı çıxan, axına qapılmayan və nəticədə yeniliklərin yaranmasına təkan verən insanlar kimi qələmə vermişlər. Heç təsadüfi deyil ki, XX əsrin ikinci yarısında dünya incəsənətində gedən proseslər Azərbaycan rəssamlarının yaradıcılığından da yan keçmədi. Onlar hər vəchlə sovet ideologiyasının ənənələrinə və "kanonlar"a qarşı gəlməyə cəhd edir, yeni cərəyanın öncüllərindən olmağa səy göstərirdilər. Belə canatımlar xoş qarşılanmasa da önlənməsi uğursuzluqla nəticələnirdi. Bu yeni cərəyanın nümayəndələrini "nonkonformistər" adlandırırdılar.

Azərbaycan incəsənətində 1950-1980-cı illərdə mövcud olan "nonkonformistər" qrupuna daxil rəssamlar öz yaradıcılıqlarında fərqli inkişaf yolu seçmişlər.

Nonkonformistlər cəmiyyətdə əsas olan fikrin əleyhinə çıxır, öz individual fikirlərini göstərməkdən çəkinmir, incəsənətdə sosrealizm ənənələrindən imtina edirdilər. 80-ci illərdə təşkil olunan Respublika və Ümumittifaq rəssamlıq sərgilərində navator ruhlu bədii konsepsiyalar aşkara çıxırdı. Artıq sənətdə fərdi üslub rəngarəngliyi, müxtəlifliyi müstəsna əhəmiyyət qazanır, təsvirdə şərtilik, stilizasiya, deformasiya təzahürlərinə təsadüf olunurdu. Bu qrup rəssamlar sırasında Rasim Babayev, Cavad Mircavadov, Əşrəf Muradoğlu, Qorxmaz Əfəndiyev, Kamal Əhməd, Fazil Nəcəfov və digərlərinin adlarını mütləq qeyd etməliyik.

Azərbaycan təsviri sənətində öz üslubu, təsvir motivləri, özünəməxsus formaları ilə bu gün öz müasirlərini düşündürən rəssam Rasim Babayevin sənətə nonkonformist yanaşması hələ tələbə olan zamandan hiss edilirdi.

Rəssamın V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda oxuduğu müddətdə "formalizmə meyilli" şəxs kimi tələbələr sırasından xaric edilməsi buna bariz nümunədir. Bakıya qayıtdıqdan sonra da təcridi şəkildə yaradıcılıqla məşğulluğa davam etmişdir. Rəssamın fəlsəfi və bədii



düşüncə tərzi, rəng duyumu, həyata baxışı, obrazlar sistemi əsərlərini daim diqqətdə saxlayırdı. Sənət fəaliyyətinin əsasını "Xeyir və şər"in bədii ifadəsi təşkil edir. Rasim Babayev müasir həyatda gördüklərinə fərqli və təzadlı məna-məzmun verməkdə əsl nonkonformist idi. "Hərbi psixoz", "Təcavüz", "Ekstremistlər marşı", "Pablo Nerudanın xatirəsinə", "Müharibənin siması", "Təcavüz", "Diptix. Mənafeyim üçün yeyirəm, içirəm", "İmperalizmin qanlı generalı Pinoçet" və digər əsərləri ilə rəssam ideoloji çərçivələrə sığmadığını bəyan etmiş, yalnız fərdi yaradıcı münasibəti ilə dünyəvi problemlərə, bəşəriyyəti düşündürən mövzulara toxunmuş, tamaşaçıları bu istiqamətdə, problemlər ətrafında düşünməyə səsləmiş, dövrün ziddiyyətlərini əks etdirməyə çalışmışdır.

Nonkonformistlərin digər görkəmli nümayəndəsi sözsüz ki, Cavad Mircavadovdur. O, Azərbaycan rəngkarlığında avanqard baxışı, eksperimentləri və nəhayət sənətdə novator çıxışları ilə geniş kütlənin marağını qazanmışdır.

Rəssamın obraz və süjetləri, motiv və formaları seyrçi təxəyyülünü düşünməyə sövq edir, onda emosional hallar yaşadır. İnsan düşüncəsinin hüdudlarında qeyri-adi hissetmə və müşahidə qabiliyyəti ona yeni formaların axtarışı təkanı verirdi. Bu fiqurlar, deformasiya olunmuş bədənlər yeninin yaranmasına, daha doğrusu, gerçək olanı yeni ifadə vasitələri ilə çatdırmağa çalışmağın nəticəsi idi. Sənətdə sosrealizm ənənələrinin hakim olduğu dövrdə belə cəsarətli addımlar onu bir-neçə əsr qabağa çəkir, yaradıcılığının sərhədlərini genişləndirirdi.

Cavad Mircavadov kompozisiyalarında gözəlliyin yaratdığı estetikliyi rədd edir,



onların yerini kobud, cansıxıcı fiqurlar əvəzləyir. Bu qorxulu, insanı vahiməyə boğan qarışıqlıq həm də ikrah hissləri oyadır. Bəlkə onun gördüyü, ifadə etmək istədiyi gerçəklik məhz bu obrazların simasında öz əksini tapıb. “Qaçırılma”, “Fayton”, “Oğlaq”, “Ümid işığı”, “Od Tanrısı”, “Meydan”, “Qadın balqabaqla”, “Nur saçan atlı”, “Hərəkət” əsərlərində bəhrələndiyi rəng qamması Şərq xalqlarının çoxəsrlik miniatür sənəti, milli ornamentlərin düşünülmüş istifadəsi, xalça sənətindən gələn nizam onun rəsmlərini klassikləşdirir.

Cavad Mircavadovun yaradıcılığında mühüm yer tutan “Yüzilliklərin himni” silsiləsi, “Azərbaycan dramaturqu Hüseyn Cavidə həsr olunur”, “Analıq” və “Maninin gəmisi”, “İpək yolu” adlı milli ruhdan qaynaqlanan əsərləri ekspressiv, dramatizmlə dolu, Şərq xalqlarının mədəniyyətini tərənnüm edən qeyri-adi rənglərlə zəngindir.

Bunun nəticəsidir ki, kobud yaxmaların hərəkəti, isti rənglərin kətan müstəvisində bədii həlli forma axtarışlarının kodlarını tapan rəssamın yaradıcılıq məşəlini işıqlandırır, onun ətrafına daha yeni nəsillərin toplanmasına imkan yaradır.

Nonkonformist rəssamlardan Əşrəf Muradoğlunun yaradcılığındakı avanqard kompozisiya həlli bu gün də aktualdır. Kompozisiya seçimi, ekspressiv rəngləri, obrazların emosionallığı onun rəngkarlıq improvizələridir. Fırça ustasının ən uğurlu tablolarından 1973-cü ildə çəkdiyi “Ata və oğul” və “Lenin Smolnıda” əsərləri obrazların özünəməxsusluğu ilə seçilir.

Rəssam əsərlərində ictimai-siyasi mövzulara müraciət edir, belə özünəməxsus münasibət təxəyyülündən sızıb kətana həkk olunurdu. Əşrəf Muradoğlunun əsərləri bizə yuxunu xatırladır. Deyirlər, bəzən yuxular gələcəkdən xəbər verir. Sovet İttifaqının zamanında rəssam əsərlərində bu rejimin gələcəyindən söz açırdı. Məsələn, “Lenin makinaçıya diqtə edir” əsərində olduğu kimi. Burada Lenin sanki tökülən qanların fərqinə varmadan diqtəsini edir, makinaçı isə əksinə, rejimə zidd çıxaraq keçmişinə baxıb görünən qara qapıdan gələcəyə çıxış yolu axtarır.

“Ata və oğul” müəllifin ən uğurlu işlərindəndir. Əsərdə qatı qırmızı rəng kompozisiyaya elə yayılmışdır ki, sanki tablo nəfəs alır. Ata və oğul arasında olan mənəvi tellər bir növ rənglərdə materiyalaşır, nəsillərin varisliyini ifadə edir.

Rəssamın tablolarına hakim olan tünd rənglər qeyri-adi görmə bacarığını nümayiş etdirir. Qara rəng onun üçün işıq mənbəyi idi, həmin rəngdən süzülən çalarlar kətanı aydınladır, avanqard görüntü yaradırdı. XX əsrin 70-ci illərində kətana köçürdüyü “Qara eynəkli qız”, “Çanta ilə qadın”, “İdmançı”, “Ağ geyimli qadınlar”, “Tennisçi” kimi tablolarında ifadə etdiyi obrazların fiqurları donuq, proporsiyaları uzadılmış, siluetik xətlərin kontrastı kəskin rənglərin əhatəsində daha canlı və ifadəlidir.

Dünyada ilk qadın kosmonavt Valentina Tereşkovaya həsr etdiyi portret rəssamın yaradıcılığının xüsusi diapozonunu təşkil edir.

Uzun illər Cavad Mircavadovla dostluq münasibətində olan avanqard baxışlı, maddi həyatdan imtina edib özünü yaradıcılığa həsr edən rəssam Qorxmaz Əfəndiyevin sənət yolu da həyatı kimi mürəkkəbdir.

Bütün yaradıcılığı boyu mühüm əhəmiyyət verdiyi əsərin teksturası onun üçün başlıca məsələyə çevrilir. Qorxmaz Əfəndiyevin yaradıcılığının son dövrü tekstura ilə dərindən işləməsi ilə fərqlənir. Sanki məqsədi antimateriya yaratmaqdır. İlk baxışdan mümkünsüz görünən axtarış həm də paradoksal bir hal idi. Axı, o həmin antimateriyanı real material maddələrlə yaratmalı idi. Əslində yaradılmış tablo özü də materiyadır. Odur ki, xətdən də imtina edir, rənglərin isə son dərəcə asketik tonallığını seçir. Yalnız tekstura sayəsində mənəviyyata, işığa çıxmağa cəhd edir. Bu isə sənətdə çox çətin, daşlı-kəsəkli yoldur.



Digər avanqard rəssamlardan Kamal Əhmədi xüsusilə vurğulamaq lazımdır. Onun əsərləri simvolika ilə doludur. Rəsmlərində intuisiya, daxili hissiyyat həmişə rəssamı müşayiət edir, yaradıcılığında əsas bələdçisinə çevrilir. Abşeron torpağı bir çox rəssamın ilham mənbəyi olduğu kimi Kamal Əhmədi də öz enerjisi ilə əhatələmişdir. O da digər rəssam həmkarları kimi incəsənətdə öz yolunu tapmış, sosialist realizm ənənələrindən imtina etmişdir. Tabloları qara və qırmızı rənglə əhatələnib. İşıq tabloya bu kontrast rənglərdən daxil olur, fiqurlar uzadılmış, obrazların ifadələri şərti, maili xətlərlə haşiyələnib. Kamal Əhmədin rəsmlərində xeyir və şərin, zülmətlə aydınlığın, ölüm ilə yaşamın, sevgi ilə nifrətin mübarizəsi bir-birini izləyir. Kompozisiyaya qəsdən əlavə etdiyi molbert, lampa, ikigözlü it, at kəlləsi kimi simvolik təsvirlərlə rəssam bir növ ətrafında baş verən bütün hərc-mərclik, ədalətsizlik, özbaşınalığı duyub dərk etdiyi, buna laqeyd yanaşmadığını açıq-aşkar göstərməyə çalışırdı.

Azərbaycan nonkonformist rəssamlarından danışırıqsa, heykəltəraşlıq sənətində təkrarsız iz qoyan avanqard üslubun təsisçisi Fazil Nəcəfovdan mütləq söz açmalıyıq.

Rəssamın təhsil aldığı siyasi və mədəni mühit incəsənətdə ideoloji nəzarətin gücləndiyi zamanlar idi. Sosialist realizm qaydaları incəsənətin bütün sahələrində olduğu kimi heykəltəraşlıqda da öz sözünü deyirdi. Fazil Nəcəfovun diplom işi üçün işlədiyi neftçilərin əməyinə həsr etdiyi kompozisiya rəhbəri Nikolay Vasilyeviç Tomski tərəfindən sərt qarşılandı. Heykəltəraşın bu mövzuda daha ekspressiv həll etdiyi, fiqurların monumentallığı ilə seçilən dinamik kompozisiyaya müraciəti heç də təsadüfi deyildi. Sözsüz ki, həmin dövrdə metal dirəklər üstündəki estakadalar üzərində salınan Neft daşları - Xəzəri öz əhatəsinə alan möcüzə bütün yaradıcı insanaları ovsunlayırdı. Fazil Nəcəfov bütün tənqidlərə, “yuxarıların” göstərişlərinə baxmayaraq, diplom işini qətiyyətlə dəyişdirmədi.

Heç şübhəsiz ki, rəssam Rasim Babayevlə eyni sənət taleyini yaşayan, Bakıya diplomsuz qayıdan heykəltəraşın dövrün öncüllərindən sayılan, daha sonra 1950-ci illərin sonu 1960-cı illərin əvvəllərində Azərbaycan təsviri sənətinin qızıl dövrünə öz imzalarını yazdıracaq Cavad Mircavadov, Tofiq Cavadov, Kamal Əhməd, Rasim Babayev kimi rəssamlarla birgə Abşeronu dolaşması, motiv axtarışları yaradıcılıq yolunun yeni mərhələsini təşkil etmişdir.

Fazil Nəcəfovun 1970-80-ci illərdə hazırladığı heykəllər emosionallığı, ifadəliliyi, fiqurların böyüdülmüş proporsiyalarına baxmayaraq, estetikliyi ilə digər heykəltəraşlıq nümunələrindən fərqlənir, avanqard üslubun xüsusiyyətlərini özündə cəmləşdirir.

Heykəltəraş müraciət etdiyi fiqurlarla insanın daxili aləmini, ağrı və acılarını, mövcudluğun dözülməz hallarını açmağa can atır. Bu fəlsəfi, insanı düşünməyə məcbur edən mövzular, həyatın sadə bir anını əbədiləşdirmə istəyindən qaynaqlanır. Onun fəlsəfi yüklü kompozisiyaları bir qədər mürəkkəbdir.

Yaşadığımız cəmiyyətin fərqli kateqoriyalarına müraciəti - “Korlar”, “Yatmış qoca”, “Ağrı, “Çılpaq qadın” kimi heykəl nümunələrinə tədqiqat nöqteyi-nəzərdən yanaşıldıqda - bu gün də aktual və baxımlıdır. Bu isə öz növbəsində heykəltəraşın öz əsrini geridə qoyub yeni üfüqlərə adlamasının, klassik, hər zaman bəşəri ideyalara sadiqliyinin gösəricisidir. Belə ki, sənət və sənətçi öz rəngləri, ifadə vasitələri ilə bütün dövrləri boyamağa davam edir. ❖


**Ədəbiyyat:**

1. Fazil Nəcəfov. Heykəltəraşlıq, qrafika. “Sərvət”, 2013.
2. Telman İbrahimov. Rasim Babayev yaradıcılığı “Xeyr və şər” etik kateqoriyaların təcəssümü kimi.
3. Sara Oğuz Nəzirov. “Əşrəf Muradoğlu”, 2007.



**Резюме**

Хамида Сулейманова

ПОИСК СТИЛЯ “НОНКОНФОРМИСТОВ”

В статье рассматривается поиски стиля и творчество художников нонконформистов второй половины XX века. Индивидуальный подход к творчеству можно увидеть у таких художников как Расим Бабаев, Джавад Мирджавадов, Ашраф Мурадоглу, Горхмаз Эфендиев, Камал Ахмад, Фазиль Наджафов и др. сыгравших важную роль в изобразительном искусстве Азербайджана.



**Ключевые слова:** художник, нонконформист, искусство Азербайджана



**Summary**

Hamida Suleymanova

SEARCH FOR THE STYLE OF “NON-CONFORMISTS”

This article explores artists’ style searches and their creativity belonging to a group called nonconformists in the second half of the twentieth century.

We can see a different approach to the creativity of artists who play an important role in the fine arts of Azerbaijan, such as Rasim Babayev, Javad Mirjavadov, Ashraf Muradoghlu, Gorkhmaz Efendiyev, Kamal Ahmad, Fazil Najafov and others.



**Key words:** artist, nonconformist, Azerbaijani art